# Azərbaycanın sosial-iqtisadi inkişafı müstəqilliyimizin əbədiliyinə hesablanıb

**Azərbaycanda quruculuq və abadlıq işləri öz sürətini əskiltmir. Ölkənin hər tərəfində müasir iqtisadi infrastrukturlar, yeni sosial obyektlər yaradılır. Həyata vəsiqə alan layihələr sosial-iqtisadi inkişafda mühüm rol oynamaqla yanaşı, öz dizaynı və müasirliyi ilə göz oxşayır, mövcud gözəlliyə yeni bir ahəng verir. Ölkədə həyata keçirilən iqtisadi islahatların və reallaşdırılan layihələrin ilbəil artan dinamizmi diqqəti cəlb edir. Bütün bunlar öz növbəsində davamlı tərəqqiyə xidmət edir. Bir sözlə, dövlət hər bir sahədə dinamik inkişafa nail olmaq üçün bütün hüquqi və praktiki tədbirləri görür. Ulu öndərin müəyyənləşdirdiyi, müəllifi olduğu, həyata keçirilən strateji inkişaf kursu və iqtisadi modelin uğurları sübut edir ki, bu istiqamət ən optimaldır və Azərbaycanın gözəl gələcəyi vardır.**

Dövlətin apardığı məqsədyönlü siyasət nəticəsində iqtisadiyyatda çoxşaxəlilik təmin olunub və bu proses getdikcə dərinləşir. Azərbaycan Prezidentinin gələcəyə istiqamətlənmiş uğurlu siyasi, iqtisadi addımları özünün müsbət nəticəsini verməkdədir. Dövlət başçısı İlham Əliyev Qaradağ rayonunda Hərbi Dəniz Qüvvələrinin yeni bazası və "N" saylı hərbi hissənin açılışındakı çıxışında bu barədə demişdir: "Düşünülmüş siyasət, xalqla iqtidar arasındakı birlik və müstəqil siyasətimiz bizim bütün uğurlarımızın əsas şərtidir. Biz güclü iqtisadiyyat qurmuşuq və bu gün iqtisadi inkişaf baxımından heç bir ölkə Azərbaycan ilə müqayisə oluna bilməz. Son on il ərzində bizdə olan iqtisadi inkişaf templəri heç bir başqa ölkədə heç vaxt olmamışdır. Bu gün Azərbaycan uğurlu iqtisadi inkişafını davam etdirir. Bu, bizə imkan verir ki, müstəqil siyasət aparaq".

Hər başa vurulan il Azərbaycanın hərtərəfli inkişafında yeni zirvənin fəthi kimi tarixə düşməkdədir. Bu gün dünya iqtisadiyyatında qlobal iqtisadi və maliyyə böhranı aradan qalxmayıb. Hələ ki, beynəlxalq iqtisadiyyatda qeyri-müəyyən vəziyyət mövcuddur. Bu şəraitdə qlobal iqtisadi vəziyyəti təhlil edərək real proqnozlara əsaslanan Azərbaycan sabit davamlı inkişafı təmin edə bilmişdir. Bu inkişaf, təbii ki, düşünülmüş siyasətlə tətbiq olunan müasir iqtisadi modelin nəticəsindədir. Hamıya aydındır ki, Avropa dünyanın ən böyük iqtisadi bazarlarından biridir. İqtisadiyyat isə enerji təhlükəsizliyi təmin edilmədən inkişaf edə bilməz. Buna görə də enerji mənbələrinə malik olmayan bu qitənin dövlətləri özlərinə həmin sahədə etibarlı tərəfdaş axtarırlar. Enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq genişləndikcə, Azərbaycanın da təchizatçı və tranzit ölkə kimi nüfuzu, iqtisadi qüdrəti də artır. Dövlətimiz bu sahədə elə dəqiq və düşünülmüş siyasət yürüdür ki, ölkə iqtisadiyyatı təkcə karbohidrogen ehtiyatından asılı olmasın, iqtisadiyyat çoxşaxəli inkişaf etsin. Bunun üçün də neft və qaz sektorundan gələn gəlirləri real sektora yönəldilmiş ölkənin hərtərəfli inkişafına, sosial rifaha nail olunmuşdur. Nəticədə müstəqil iqtisadi siyasət yürüdən Azərbaycan siyasi arenada da müstəqilliyə malik olmuşdur. Bu gün ölkəyə güclü iqtisadi və siyasi dividendlər gətirən neft-qaz sektoruna aid transmilli layihələr ölkənin real iqtisadiyyatını inkişaf etdirməklə yanaşı, olduqca geniş beynəlxalq regional əməkdaşlıq üçün də möhkəm və səmərəli zəmin yaradıb. Azərbaycan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəmərlərinin müvəffəqiyyətlə istismara verilməsi ilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynamağa başladı. Etibarlı tərəfdaş imici qazanan dövlət Transanadolu (TANAP) və Transadriatik (TAP) qaz kəmərləri layihələrinin də tikintisində lider mövqeyini əldə etdi.

Enerji təhlükəsizliyi hər bir ölkənin iqtisadi inkişafında mühüm və həlledici rola malikdir. Transanadolu qaz kəməri layihəsi – TANAP Avropanın enerji təhlükəsizliyinin möhkəmlənməsində mühüm rol oynayacaq nəhəng transmilli layihədir. Azərbaycanın isə 100 illik qaz ehtiyatı vardır. Ölkəmizin beynəlxalq əməkdaşlıqda apardığı siyasətin mahiyyəti budur ki, tərəflər arasında qarşıdurmaya yol verilməsin, əksinə, maksimum əməkdaşlıq olsun, çünki səmərəli əməkdaşlıq, qarşılıqlı mənafelərin təmini və sosial-iqtisadi inkişafın, rifah halının yüksəlişinin və dünyada siyasi stabilliyin əsasıdır. Azərbaycan əməkdaşlığa məhz bu dünyagörüşü ilə yanaşır. Nəticə çox uğurludur. Ölkəmizin siyasəti çox açıqdır, xoşniyyətlidir, şəffafdır və bu siyasət ölkələri qarşılıqlı inkişafa, maraqları ödəməyə, şəffaf münasibətlərə, bir-birinin daxili işlərinə qarışmamağa hesablanıb. Bu gün ölkəmiz dünyanın önəmli enerji təchizatçısına çevrilir və neft strategiyası Azərbaycanın müstəqilliyinə və iqtisadi inkişafına mühüm töhfələr verir. Dövlətin iqtisadi cəhətdən müstəqil olması, təsərrüfat sahələrinin dominant inkişafı, zəruri əmtəələri daxildə istehsal etməsi və ümumi daxili məhsulların beynəlxalq standartlara uyğun olması, güclü ixrac potensialından həlledici dərəcədə asılıdır. Azərbaycan zəngin təbii sərvətlərə malikdir. Mövcud iqtisadi potensialı səmərəli dövriyyəyə cəlb etmək üçün regionların sosial-iqtisadi inkişafı və digər müvafiq



Dövlət proqramları qəbul edilmiş konkret mexanizmlərlə icra edilir, qarşıya çıxan bütün problem və məsələlərin həlli üçün müvafiq islahatlar davamlı surətdə həyata keçirilir.

Regionların sosial-iqtisadi inkişafı üçüncü Dövlət Proqramının icrası uğurla davam edir. Bu da Azərbaycanın bütün bölgələrində hərtərəfli inkişafa güclü stimul verir. Ən təqdirəlayiq odur ki, qeyri-neft sektorunun prioritet elan edilməsi və bu sahəyə kifayət qədər sərmayə yönəldilməsi sayəsində sosial-iqtisadi sahədə çox böyük nailiyyətlər əldə edilməkdədir. Belə ki, bu gün Azərbaycan iqtisadiyyatı artıq neft sektorundan asılı deyildir və real sektorda ümumi daxili məhsul istehsalı sürətlə artmaqdadır. Dövlətin hərtərəfli tərəqqisinə yönələn bu uğurlu siyasəti davamlıdır. Yeni infrastruktur layihələrinin həyata keçirilməsi də regionların inkişafına güclü təkan verib. İqtisadiyyatda çoxşaxəli inkişafa nail olmağın nəticəsidir ki, ümumi daxili məhsulun artımı davamlı hal alıb.

Ölkəmizin iki qitənin qovuşuğunda mühüm nəqliyyat və tranzit məkanı olması Azərbaycan vasitəsilə Avratlantik bazara çıxmaq istəyən Asiya dövlətləri üçün də olduqca cəlbedicidir. Beləliklə, inteqrasiyanın tərəfdarları və bu prosesdə maraqlı dövlətlərin sayı getdikcə artır. Göründüyü kimi, ölkəmiz dünya çapında mühüm iqtisadi mərkəz rolunu oynamaqdadır və bu mövqe getdikcə güclənir. Qloballaşan iqtisadiyyatda dünyada beynəlxalq siyasətin mərkəzində duran iqtisadi mərkəzlər, mühüm tranzit ölkələr və güclər artıq reallıqdır.

**(davamı 2-ci səhifədə)**

# Azərbaycanın sosial-iqtisadi inkişafı müstəqilliyimizin əbədiliyinə hesablanıb

**(əvvəli 1-ci səhifədə)**

Sadəcə öncədən bu prosesi görmək, daxili və xarici siyasəti ona görə formalaşdırmaq və bu istiqamətdə strateji inkişaf kursunu reallaşdırmaq yetərlidir. Ulu öndər Heydər Əliyevin hazırlayıb müəyyənləşdirdiyi strategiya bütün amilləri özündə ehtiva edir. Avropa iqtisadi bazarında çox mühüm mövqeyi olan Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun bu sözləri heç də təsadüfi deyil: "Qarşıdan gələn illər ərzində Azərbaycanın enerji ehtiyatları Avropa və dünya iqtisadiyyatında getdikcə daha mühüm rol oynayacaqdır. Azərbaycan bu ehtiyatların hər kəsin naminə istifadə edilməsi işində əsas rol oynamışdır. Bütün bunlar iqtisadi çağırışların davam etdiyi bir dövrdə daha çox əhəmiyyət kəsb edir. Və mən bp şirkətinin bu proseslərdə bu cür yaxından iştirakından məmnunluq duyuram". Göründüyü kimi, ixrac potensialının artması Azərbaycanın dünya iqtisadiyyatında mühüm rol oynamasına və bu mövqenin daim möhkəmlənməsinə əsas yaradır. Neft sektorundakı nailiyyətlər düşünülmüş siyasət nəticəsində real iqtisadiyyatın bütün sahələrinə aid layihələrin sürətlə reallaşdırılmasında da mühüm rol oynayır və hərtərəfli inkişaf üçün güclü zəminə təminat verir.

Azərbaycan iqtisadi modelinin əsas xarakterik xüsusiyyətləri odur ki, dünyada gedən makro və mikroiqtisadi proseslərin inkişaf meyilləri, onun mahiyyəti, ölkənin iqtisadi potensialı və dünya bazarlarının təklif və tələbatı daim nəzərə alınır. Azərbaycanın istər iqtisadi, istərsə də sosial rifahı müstəqilliyimizin əbədiliyinə hesablanıb.

Azərbaycan Prezidenti İlham Əliyev bu barədə vurğulayıb: "Bizim xalqımız azaddır, müstəqildir. Biz öz həyatımızı özümüz qururuq, heç kimdən asılı deyilik. Bizim müstəqilliyimiz sadəcə olaraq dövlət atributları ilə ölçülmür. Biz müstəqil siyasət aparırıq, bütün beynəlxalq tribunalarda sözümüzü deyirik, bütün beynəlxalq məsələlərlə bağlı qətiyyətli mövqeyimizi ifadə edirik".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**